# "TələbəPlus"un əhatə dairəsi genişlənir



Yanvarın 28-də Təhsilin İnkişafı Fondu və "Referans Medical Group" arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Sənədi Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov və "Referans Medical Group"un direktoru Elgiz Dadaşov imzalayıblar.

İdarə Heyətinin sədri Elnur Nəsibov çıxış edərək Fond tərəfindən həyata keçirilən layihələr haqqında məlumat verib. Elnur Nəsibov vurğulayıb ki, "TələbəPlus" layihəsi bütün ölkə üzrə tələbələrin eyni güzəşt və endirimlərdən yararlanmalarını təmin etmək, eyni zamanda onların sosial həyatlarına dəstək göstərmək məqsədi daşıyır. Sədr bu təşəbbüsün tələbələrin sağlamlıqla bağlı ehtiyaclarını qarşılamaq üçün yeni imkanlar yaratdığını və onların həyat keyfiyyətinin artırılmasına dəstək olduğunu bildirib. Qeyd olunub ki, bu əməkdaşlıq çərçivəsində tələbələr təkcə təhsil deyil, həm də sağlamlıq baxımından mühüm imkanlar əldə edirlər.

"Referans Medical Group"un direktoru Elgiz Dadaşov şirkətin tələbələrin rifahına töhfə vermək üçün daim yeni təşəbbüslər həyata keçirdiyini diqqətə çatdırıb. Tələbələrin sağlamlığının həmişə prioritet olduğunu bildirən direktor Təhsilin İnkişafı Fonduna təşəkkür edib və bu əməkdaşlıq vasitəsilə tələbələrin "Referans Medical Group"un təqdim etdiyi güzəşt və fürsətlərdən yararlana biləcəklərini vurğulayıb.

İmzalanmış müqaviləyə əsasən tələbələr "TələbəPlus" kartı ilə "Referans Medical Group"un ölkə üzrə bütün filiallarında təqdim olunan tibbi xidmətlər üçün 10% endirim əldə edə biləcəklər. Eyni zamanda, tələbələr Bakıda yerləşən bütün filiallarda ildə bir dəfə olmaqla ödənişsiz çek-ap müayinəsindən yararlanmaq imkanı əldə edirlər.

Çek-ap-a aşağıdakı xidmətlər daxildir:

* Terapevt müayinəsi
* Görmənin yoxlanması
* Boy, çəki, bədən kütlə indeksi monitoringi
* Ağciyərlərin rentgen müayinəsi
* Qarın boşluğu USM
* Qanın ümumi analizi

**Qeyd:** Çek-ap müayinəsi ilə bağlı öncədən qeydiyyat mütləqdir və çağrı mərkəzi ilə *0033 nömrəsi vasitəsilə əlaqə saxlanılmalıdır.

*Təhsilin İnkişafı Fondu və "Referans Medical Group" arasında əməkdaşlıq müqaviləsi imzalanıb*




